

**Tahirə Axi qızı Haqverdiyev:** 20 avqust 1961-ci ildə Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. 1978-ci ildə orta məktəbi bitirdikdən sonra üç il istehsalatda çalışdıqdan sonra 1981-1986 illərdə Azərbaycan Mühəndis İnşaat İnstitutunun İnşaat-texnologiya fakültəsinin "Tikinti məmulatları və konstruksiyalarının istehsalı" ixtisası üzrə təhsil almışdır. 1986-cı ildə təyinatla "Bakı Baş Tikinti" idarəsinə işə göndərilmiş və gənc mütəxəssis kimi 3 saylı Evtikmə kombinatında işə başlamışdır. 1986-1994-cü illərdə 3 saylı Evtikmə kombinatında mühəndis və aparıcı mühəndis vəzifələrində çalışmışdır.

1994-cü ildə Evtikmə kombinatının göndərişi ilə Azərbaycan Mühəndis İnşaat Universitetinin "Yapışdırıcı materiallar və betonlar texnologiyası" kafedrasında baş laborant kimi işə başlamış, 1997-2000-ci illərdə assistent, 2000-2004-ci ilərdə baş müəllim, 2004-cü ildən dosent, 30 dekabr 2016-cı ildən etibarən professor vəzifəsində işləyir. Hazırda "Materialşünaslıq" kafedrasının proffessoru vəzifəsində və eyni zamanda 2011-ci il noyabr ayından etibarən İnşaat-texnologiya fakültəsinin dekanı vəzifəsində çalışır.

O, 180-dan çox elmi əsərin, o cümlədən 10 dərsliyin, 11 dərs vəsaitinin, 10 metodki göstərişin, 2 patentin, çox sayda fənn proqramının, tezis və məqalənin müəllifidir.

Yeni Azərbaycan Partiyasının üzvidür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 iyun 2016-cı il tarixli sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür.

2016-cı ildə Azərbaycan Təhsil işçiləri Azad Həmkarıar İttifadının medalı ilə, Azərbaycan Respublikasının Veteranlar Təşkilatı tərəfindən “General Səməd bəy Mehmandarov” yubiley medalı ilə təltif edilmişdir.

2019-cu ildə Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Beynəlxalq Elmlər Akademiyyasının həqiqi üzvi (akademiki) seçilmiş və diplomuna layiq görülmüşdür.

Evlidir, 2 övladı var.